# OKSİGEN TƏRKİBLİ ƏLAVƏ KİMİ BUTANOLUN DİZEL YANACAĞINA ƏLAVƏ OLUNMASI

**Abbasov V.M., Məmmədova T.A., Lətifova T.S., Tağıyeva A.F., Aydınova Ş.Y.**

*AMEA-nın akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu*
*ayten_tagiyeva97@mail.ru*

Hazırda ekoloji vəziyyətin gərginləşməsi ilə əlaqədar olaraq motor yanacaqlarının keyfiyyətinə və onların yanma məhsullarına olduqca sərt ekoloji tələblər tətbiq olunur və yanacaqların ekoloji göstəricilərini yaxşılaşdırmaq məqsədi ilə müxtəlif əlavələr tətbiq edilir.

Ekoloji nöqtə nəzərindən təhlükəsiz dizel yanacaqlarının alınması üçün onların tərkibinə alternativ mənbələr əsasında alınan oksigen tərkibli birləşmələr əlavə olunur. Bu da öz növbəsində alınan yanacaqların yanma məhsullarında hisin və yanmamış makrohissəciklərin azalmasına gətirib çıxarır.

Təqdim edilmiş işdə əmtəə dizel yanacağına alternativ xammal əsasında (etanolun alınmasında yan məhsul olan) alınan oksigen tərkibli əlavə kimi 10% kütlə butanol əlavə edilmiş və alınan kompaundun fiziki-kimyəvi xassələri öyrənilmişdir.

Əmtəə dizel yanacağı və 10% kütlə butanol qarışığının fiziki-kimyəvi xassələri aşağıdakı cədvəldə təqdim edilmişdir.

**Cədvəl. Əmtəə dizel yanacağı və 10% kütlə butanol qarışığının fiziki-kimyəvi xassələri**

| Göstəriciləri | EN - 590 | ƏDY | ƏDY + 10 % Butanol |
|---|---|---|---|
| 20ºC-də sıxlıq kq/m³, çox olmamalı | 860,0 | 847,4 | 844,8 |
| Fraksiya tərkibi, % | | | |
| 50 % - i qovulur | 280 | 280 | 275 |
| 90 % - i qovulur | 350 | 340 | 318 |
| 96 % - i qovulur | 360 | 355 | 340 |
| Qapalı tigeldə alışma temperaturu, ºC, az olmamalı | 55 | 74 | 45 |
| 20 ºC – də kinematik özlülük, mm²/san, çox olmamalı | 2-6 | 3,20 | 2,75 |
| Donma temperaturu, ºC, çox olmamalı | -10 (-35)* | -31 | -33 |
| Bulanma temperaturu, ºC, çox olmamalı | -25 (-10)* | -20 | -24 |
| Mis lövhədə sınaq, 50 ºC, 3 saat | + | + | + |

| | | | |
|---|---|---|---|
| Aromatik karbohidrogenlərin miqdarı, % küt. | - | 16 | 15.2 |
| Turşuluq, mq KOH /100 $sm^3$ yanacaq olmamalı | 5 | 1,3 | 1.1 |
| Yod ədədi, mq $J_2$/1 q yanacaq, çox olmamalı | 6 | 0 | 0 |
| Kükürdün ümumi miqdarı, kütləcə % - lə, çox olmamalı | 0,005 | 0,0112 | 0,0096 |
| 100 $sm^3$ yanacaqda qətranın faktiki miqdarı, mq, çox olmamalı | 25 | 18 | 16.2 |
| Yanmanın aşağı istiliyi kC/kq | - | 42880 | 41830 |
| Setan ədəd, az olmamalı | 51 | 46 | 46 |

**Cədvəldən göründüyü kimi əmtəə dizel yanacağına 10% butanol əlavə etdikdə alınan kampaundların fiziki-kimyəvi xassələri dizel yanacaqlarına qoyulan tələblərə uyğun gəlir. Bu da onu göstərir ki, oksigen tərkibli əlavə kimi butanol dizel yanacağına əlavə edilə bilər.**